# Allaha and olsun ki-Allah istəyərsə-mən and içirəm, sonra bundan (and içdiyimdən) daha xeyirlisini gördüyümdə andımın kəffarəsini verirəm və daha xeyirli olanı edirəm”

Əbu Musa Əl-Əşaridən (Allah ondan razı olsun) belə rəvayət edilir: Əşari qəbiləsindən bir dəstə ilə Allah Rəsulunun (Allahın salavatı və salamı onun üzərinə olsun) yanına gəldim ki, ondan (cihad üçün) minik istəyim. Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) dedi: "Vallahi sizi apara bilmərəm, sizi aparacaq miniyim yoxdur." Biz Allahın istədiyi qədər qaldıqdan sonra ona dəvələr gəldi və bizə üç dəvə göndərdi. Elə ki, getmək istədikdə bəzilərimiz dedilər: Allah bizə bərəkət verməz, çünki, Allah Rəsulunun (Allahın salavatı və salamı onun üzərinə olsun) yanına minik üçün getdik, o isə bizi aparmayacağına and içdi. Lakin indi aparır. Əbu Musa dedi: Biz Allah Rəsulunun (Allahın salavatı və salamı onun üzərinə olsun) yanına gəldik və bunu ona danışdıq. O, isə dedi: "Sizi döyüşə aparan (buna müvvəfəq edən) Allahdır, mən deyiləm, Allaha and olsun ki-Allah istəyərsə-mən and içirəm, sonra bundan (and içdiyimdən) daha xeyirlisini gördüyümdə andımın kəffarəsini verirəm və daha xeyirli olanı edirəm”.

[Səhih] [Müttəfəqun aleyhi(əl-Buxari və Musliminsəhih gördüyü hədislər)]

Əbu Musa Əl-Əşari (Allah ondan razı olsun) xəbər verir ki, o, öz qəbiləsindən bir dəstə ilə Allah Rəsulunun (Allahın salavatı və salamı onun üzərinə olsun) yanına gəldi və onların məqsədi cihadda iştirak edə bilmələri üçün Peyğəmbərin (Allahın salavatı və salamı onun üzərinə olsun) onlara minmək üçün dəvə verməsi idi. Lakin Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) onları aparmayacağına və onlar üçün miniyi olmadığına and içdi. Onlar qayıdıb bir müddət qaldılar, sonra Peyğəmbərə (Allahın salavatı və salamı onun üzərinə olsun) üç dəvə gəldi və o, bu dəvələri onların yanına göndərdi və onlardan bəziləri bir-birinə dedilər: Allah bu dəvələri bizim üçün bərəkətli etməz, çünki Peyğəmbər (sallallahu aleyhi və səlləm) bizi aparmayacağına and içdi. Bunun üçün onun yanına gedib ondan soruşdular. O (Allahın salavatı və salamı onun üzərinə olsun) isə dedi: Sizi döyüşə aparan Uca Allahdır, çünki müvəffəq edən və ruzi verən Odur, mən sadəcə olaraq bir səbəbəm ki, bu şey mənim əlimlə baş vermişdir. Sonra O (Allahın salavatı və salamı onun üzərinə olsun) dedi: Allaha and olsun ki, mən -inşallah- nə isə etməyə və ya nəyisə tərk etməyə and için, sonra, başqa bir şeyin bu and içilən şeydən daha xeyirli və fəzilətli olduğunu bilsəm, fəzilətli olanı edib, and içiləni tərk edirəm və andımın kəffarəsini ödəyirəm.

النجاة الخيرية
ALNAJAT CHARITY

لجنة الدعوة الإلكترونية
EDC
E-Da'wah Committee